**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İRƏVAN QUBERNİYASININ İQDIR (SÜRMƏLİ) BÖLGƏSİNDƏ ERMƏNİLƏRİN TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI TÖRƏTDİKLƏRİ SOYQIRIMLARI (XX əsrin əvvəlləri)

İxtisas: **5503.02 - Vətən tarixi**
Elm sahəsi: **- Tarix**
İddiaçı: **Könül Qabil qızı Əliyeva**

fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim etdiyi dissertasiyanın

## AVTOREFERATI

**Bakı – 2023**

Dissertasiya işi AMEA Tarix İnstitutunun "Yeni tarix və Azərbaycan xalqına qarşı soyqırımları tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**Yaqub Mikayıl oğlu Mahmudov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**İradə Səid qızı Bağırova**

tarix üzrə fəlsəfə doktoru
**Nazim Yusif oğlu Mustafayev**

tarix üzrə fəlsəfə doktoru
**Taleh Vəzir oğlu Cəfərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının
Elmi katibi: tarix üzrə fəlsəfə doktoru,dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
**Mais İsrail oğlu Əmrahov**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan xalqının soyqırımının 80 illiyi haqqında ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanı[1] və Azərbaycan xalqının soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı[2] tarixi keçmişimizin qaranlıq, ağrılı səhifələrini aydınlatmağa yönəlmiş, Azərbaycan xalqının soyqırımının dərindən araşdırılması, ardıcıl və sistemli şəkildə tədqiqatlar aparılması istiqamətində səyləri artırmağa hesablanmışdır. Azərbaycanın müxtəlif bölgələrində soyqırımı faktlarının öyrənilməsi yüksək elmi aktuallığa, həmçinin böyük ictimai-siyasi və elmi-praktik əhəmiyyətə malikdir. XX əsrin əvvəlində, xüsusən də Ermənistan Respublikası yaradıldıqdan sonra erməni silahlı birliklərinin yerli azərbaycanlı əhaliyə qarşı qətliamlarının real mənzərəsinin dünya ictimaiyyətinə çatdırılması, bu mövzu üzrə erməni tarixçilərinin faktları saxtalaşdırmalarının qarşısının alınması ideoloji mübarizənin əsas vəzifələrindən biridir.

Azərbaycanın şimal hissəsinin Rusiya imperiyası tərəfindən işğalından sonra Osmanlı və Qacarlar dövlətlərindən bu regiona erməni əhalinin kütləvi köçürülməsi ilə, xüsusən İrəvan bölgəsində yaşayan azərbaycanlı əhalinin sıxıntılı günləri başladı. Çar məmurlarının himayəsi ilə gəlmə erməni ailələri ən yaxşı, məhsuldar torpaqlarda məskunlaşdırıldı, imtiyazlı mövqe tutdu. Yerli müsəlman əhali isə minillər boyu yaşadıqları ata-baba torpaqlarında təqib olunmağa, mülklərini itirməyə, bir çox halda isə

---

[1] Əliyev, H.Ə. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 26 mart 1998-ci il / https:// az.wikisource. org/wiki/

[2] Əliyev, İ.H. 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 yanvar 2018-ci il / https://azertag.az/xeber/ -1129477

dözülməz yaşayış şərtlərindən bezərək qonşu ölkələrə köçməyə məcbur qaldı. Hakimiyyət nümayəndələrinin onillər boyu yeritdiyi bu siyasət erməni qatı millətçi qüvvələrinin özgə torpaqlarına yiyələnmək, "dənizdən dənizə Böyük Ermənistan" dövləti yaratmaq niyyətlərini gerçəkləşdirməyə münbit şərait yaratdı.

XX əsrin başlanğıcında erməni terrorçu dəstələrinin dinc müsəlman-türk əhaliyə qarşı vəhşilikləri, qadın və qızlara, qocalara, körpə uşaqlara qəddarlıqla divan tutmaları, müsəlmanların əmlakını yağmalamaları, evlərini yandırıb, istifadəyə yararsız hala salmaları bir qayda olaraq cəzasız qaldı. Azərbaycanın qeyrətli oğullarının yaratdıqları müdafiə təşkilatları və özünümüdafiə qüvvələri bu erməni vəhşiliklərinin daha geniş miqyas almasını yalnız qismən əngəlləyə bildi.

Birinci dünya müharibəsi başlandıqdan dərhal sonra erməni qatı millətçi qüvvələri yeni silahlı dəstələr yaradaraq, öncə Qafqaz cəbhəsində döyüş əməliyyatı bölgələrində, sonrakı dövrdə isə bütün Cənubi Qafqazda dinc müsəlman-türk əhaliyə qarşı kütləvi qətl və qarətlər həyata keçirdilər. 1917-ci il Fevral inqilabından sonra regionda mərkəzi hakimiyyət qurumlarının təsirinin zəifləməsi, cəzasızlıq ab-havası yaradılması erməni vəhşiliklərinin miqyasını dəfələrlə genişləndirməyə imkan verdi.

Bu soyqırımı həqiqətlərinin dünya ictimaiyyətinə doğru-dürüst çatdırılması, erməni yalanlarının ifşa edilməsi üçün elmi araşdırmalar aparılması zəruridir. Doğrudur, son dövrdə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu soyqırımı probleminə həsr olunmuş silsilə tədbirlər, beynəlxalq elmi konfranslar keçirmiş, monoqrafiya və sənəd topluları nəşr etmişdir. Bununla bərabər, erməni dəstələrinin müxtəlif bölgələrdə həyata keçirdikləri soyqırımı faktlarının tədqiq edilməsi sahəsində görülən işlərin ardıcıl davam etdirilməsi zəruridir. Bu baxımdan, Azərbaycanın tarixi ərazisi olan Sürməli (İqdır) bölgəsində əhalinin soyqırımı mövzusunun araşdırılması yüksək elmi aktuallığa malikdir.

Müasir dövrdə erməni təbliğat maşını və ona dəstək olan xristian mediası ermənilərin qonşu xalqlara, dinc insanlara, xüsusən də qadın, uşaq və qocalara qarşı kütləvi qətl və qarətlərini,

“1915-ci il hadisələri”ni özlərinə sərfəli şəkildə təhrif etməklə çatdırır, öz qəddarlıqlarına haqq qazandırmağa çalışır, 1920-ci illərdə AXC və Türkiyə ictimai-siyasi xadimlərinə qarşı terror aktlarını “erməni fədailərinin qisas aktları” kimi qələmə verirlər. Erməni silahlı dəstələri tərəfindən Şərqi Anadoluda və Azərbaycanda həyata keçirilən kütləvi qətliamların dərindən araşdırılması həm də ona görə böyük elmi əhəmiyyətə malikdir ki, hazırda “erməni soyqırımı” iddiası Qərb ölkələrində bütövlükdə anlayışla qarşılanmaqdadır. Bunun qarşısını almaq, dünya birliyinə, beynəlxalq ictimaiyyətə əsl həqiqətləri çatdırmaq üçün ermənilər tərəfindən həyata keçirilmiş bütün soyqırımı faktlarının tədqiq edilməsi olduqca vacibdir.

Bu məlumatların dünya ictimaiyyətinə doğru-düzgün çatdırılması ilk növbədə soyqırımı qurbanı olmuş minlərlə insanın xatirəsinə ehtiramdır. Bu faktların ictimailəşdirilməsi həm də ona görə əhəmiyyətlidir ki, özlərini zavallı, məzlum, soyqırımı qurbanı kimi qələmə verən erməni xalqının nümayəndələri əslində ən dəhşətli soyqırımlarını gerçəkləşdirən cəlladdırlar.

Son dövrlərdə İrəvan xanlığının Rusiya işğalı ərəfəsi və dövründə ictimai-siyasi və etnik-demoqrafik vəziyyəti haqqında mühüm araşdırmalar aparılmışdır. Akademik Y.Mahmudovun rəhbərliyi altında nəşr edilmiş və Azərbaycan Respublikasının dövlət mükafatına layiq görülmüş “İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” əsəri[3] bu baxımdan böyük əhəmiyyətə malikdir.

Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun 2014-2018-ci illərdə azərbaycanlılara və bütövlükdə türk-müsəlman əhaliyə qarşı erməni silahlı dəstələrinin törətdikləri soyqırımlarına həsr edilmiş beynəlxalq elmi konfranslarının materialları erməni silahlı dəstələrin dinc əhaliyə qarşı törətdikləri kütləvi qətl və qarətlərin ölkə ictimaiyyətinə, böyüməkdə olan gənc nəslə, dünya birliyinə çatdırılması

[3] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi / baş red. Y.Mahmudov. – Bakı: Azərbaycan, – 2010. – 617 s.

üçün böyük əhəmiyyətə kəsb edir. Məsələn, AMEA Tarix İnstitutunun elmi əməkdaşları H.Həsənov və E.Məhərrəmovun Rusiya işğalı dövründə Sürməli bölgəsində demoqrafik vəziyyətin araşdırılmasına həsr edilmiş məruzələrində Rusiya işğalından dərhal sonra bölgəyə ermənilərlə yanaşı, yezidi kürdlərinin və qaraçıların da köçürüldüyü qeyd edilmişdir.[4]

Qatı erməni millətçi qüvvələrinin Azərbaycan xalqına qarşı qətl və qarətləri haqqında A.İsgəndərov, V.Abışov, İ.Niftəliyev, N.Mustafa, İ.Məmmədov və digər tarixçilər sanballı tədqiqat əsərləri[5] yazmışlar. Bu əsərlərdə İrəvan quberniyasında erməni silahlı dəstələrinin dinc azərbaycanlı əhaliyə qarşı soyqırımları haqqında bir sıra dəyərli faktlar elmi dövriyyəyə gətirilmişdir. M.Qasımlı və Y.Qazıyevin əsərlərində[6] də İrəvan quberniyasında, o cümlədən Sürməli (İqdır) bölgəsində soyqırımı faktları əks olunmuşdur. Həmin əsərlərin çox mühüm məziyyəti həm də xeyli sayda erməni vəhşiliklərini əks etdirən arxiv sənədlərinin dərc edilməsidir.

---

[4] Həsənov, H., Məhərrəmov, E. Çarizmin mürtəce köçürmə siyasəti və Sürməlidə demoqrafik durumunun təkamülü // "Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfransın materialları. – Bakı: Turxan, – 2016, – s.199-204

[5] İsgəndərov, A.C. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. 1918-1920 / A.İsgəndərov. – Bakı: Adiloğlu, – 2006. – 396 s.; Abışov, V.Ş. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). ) / V.Abışov. – Bakı: Nurlan, – 2005. – 176 s.; Нифталиев, И.В. Геноцид Азербайджанцев в Ереванской губернии (1918-1920) / И.Нифтелиев. – Баку: «Элм», – 2017. – 188 s.; Mustafa, N. İrəvan quberniyasında Azərbaycanlıların soyqırımı (1918-1920) / N.Mustafa. – Bakı: Elm, –2017. – 328 s.; Məmmədov, İ. Tariximiz, torpağımız, taleyimiz / İ.Məmmədov. – Bakı: "Adiloğlu" nəşriyyatı, – 2003. – 700 s. və s.

[6] Qasımov, M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər) / M.Qasımov. Üç hissədə. I hissə. 1914-cü il avqust – 1917-ci il oktyabr. – Bakı: Qanun, 2000. – 300 s.; II hissə. 1917-ci il noyabr – 1918-ci il noyabr. – Bakı: Adiloğlu, 2001. – 406 s.; Газыев, Ю.Х. Кто кого подвергал геноциду? / Ю.Газыев. – Баку: изд. «Университет Хазар», – 2011. – 600 с.

Müasir Rusiya tarixçisi O.Kuznetsovun erməni terroruna həsr etdiyi monoqrafiyasında erməni xalqı haqqında bu fikirləri düşündürücüdür: *"Günümüzdə ermənilər dünyada yeganə etnik qrupdur ki, əhalisinin əksəriyyəti üçün terrorçular qatil, cani deyil, "fədai" – qəhrəman, örnək götürülməli olan igidlərdir. Onların şərəfinə Ermənistan Respublikasında abidələr ucaldılır, memorial komplekslər inşa edilir."*[7] Müəllif xüsusi qeyd etmişdir ki, erməni terrorundan dinc əhali ilə yanaşı, Rusiyanın yüksək çinli məmurları, hərbçiləri də ziyan çəkmişlər.

Gürcü tədqiqatçısı F.Maxaradze Daşnak partiyasının müsəlman əhaliyə qarşı kütləvi qətl və qarətləri haqqında məlumat vermiş, bu təçkilatın erməni xalqının məhv edilməsində də həlledici rol oynadığını bildirmişdir: *"Bu partiya proqram sənədlərində inqilabi ... çağırışlar etsə də, qatı millətçi təşkilat olmuş, erməni xalqından zorla böyük maliyyə vəsaiti toplayıb silahlı dəstələr yaratmış, silsilə terror aktları törətmişdir."*[8]

Ermənistan Respublikasında və ondan kənarda erməni müəlliflərinin guya Azərbaycanda kütləvi erməni qırğınları törədilməsi haqqında əsər və məqalələrinin sayı son onilliklərdə əhəmiyyətli dərəcədə artmışdır. Bu əsərlərdə 1905, 1918 və 1980-ci illərin sonunda Azərbaycanda üç dəfə erməni qırğını baş verməsi iddiaları irəli sürülmüşdür. Erməni müəllifləri həmçinin XX əsrin əvvəllərində Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı kütləvi qətliamlara başçılıq etmiş Hamazasp Srvantsyan, Dastamant Kananyan (Dro), Qaregin Njde və Andranik Ozanyanı erməni milli azadlıq hərəkatı lideri, milli qəhrəman kimi təqdim edirlər.[9] Erməni müəllifləri üçün xarak-

---

[7] Кузнецов, О.Ю. История транснационального армянского терроризма в XX столетии: Историко-криминологическое исследование / О.Кузнецов. – Москва: «Аквариус», – 2015. – с.8

[8] Махарадзе, Ф. Записки о революционном движении на Южном Кавказе / Ф.Махарадзе. – Тбилиси, – 1927. – с.82

[9] Мелик-Шахназарян, Л. Военные преступления Азербайджана против мирного населения Нагорно-Карабахской Республики. / Л.Мелик-Шахназарян. – Ереван: изд-во «Наири» – 1997. – 296 с.; Мелик-

terik olan bu cür yanaşmaya başqa bir nümunə də E.Ohanesyanın əsəridir. Bu əsərdə erməni insan cəlladlarının qanlı əməllərindən, terrorçuluq aktlarından sevgi ilə bəhs edilmiş, terror qurbanları isə son dərəcə mənfi obrazda, öldürülməyə layiq olanlar kimi təqdim edilmişdir[10].

Tarixçi K.Şükürov erməni müəlliflərin Azərbaycanda qırğınlar üzrə yeni konsepsiya irəli sürdüklərini bildirmişdir: *"1905, 1918 və 1980-ci illərin sonları – 90-cı illərin əvvəllərinə dair hadisələrdən bəhs edilərkən üstün yer tutan məzlum erməni obrazı ..., yeni tipli qalib erməni obrazı ilə əvəz olunur."*[11]

Türkiyədə də son onilliklərdə erməni silahlı dəstələrinin Şərqi Anadoluda, Qafqazda, xüsusən də Azərbaycanın müxtəlif bölgələrində türk-müsəlman əhaliyə qarşı törətdikləri kütləvi qətliamların araşdırılmasına diqqət daha da artmış, bu mövzular haqqında çoxlu əsər və məqalələr nəşr olunmuş, beynəlxalq konfrans və simpoziumlarda məruzələr edilmişdir. Bu baxımdan, 1995-ci ildə İqdırda keçirilən "Tarihi gerçekler ve Ermeniler" mövzusunda beynəlxalq elmi konfrans[12] olmuşdur. Bununla bərabər, XX əsrin ilk onilliklərində erməni dəstələrinin İrəvan quberniyasında törətdikləri kütləvi qətliamlar haqqında tədqiqatların ardıcıl davam etdirilməsi zəruridir. Xüsusən də Sürməli (İqdır) bölgəsində baş vermiş erməni vəhşiliklərinin dərindən və sistemli şəkildə araşdırılması və geniş ictimaiyyətə çatdırılması mühüm vəzifə kimi qarşıda durmaqdadır.

---

Шахназарян, Л. Ходжалинское дело: Особая папка. / Л.Мелик-Шахназарян, Г.Демоян. – Ереван: изд-во Кавказского центра Иранистики – 2002. – 248 с.

[10] Оганесян, Э. Век борьбы: очерк 100-летней истории дашнакской партии и национально-освободительной борьбы армянского народа / Э. Оганесян – Москва-Мюнхен: изд. «Феникс», – 1991. – 216 с.

[11] Şükürov, K.K. Azərbaycanda erməni qırğınları və deportasiyaları haqqında baxışların tənqidi təhlili // Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər). II Beynəlxalq elmi konfransın materialları. – Bakı: Turxan NPB, – 2015. – s.72

[12] Iğdır "Tarihi gerçekler ve Ermeniler" uluslararası sempoziumu, 24-27 nisan1995 / Iğdır. – Ankara:Devlet İstatistik Enstitüsü matbaası,–1997.–237s.

Dissertasiya işinin əsas mənbə bazasını müxtəlif xarakterli ilkin qaynaqlar təşkil edir. Tədqiqat prosesində müraciət edilən sənəd və materiallar içərisində erməni terror təşkilatları, onların terrorçuluq fəaliyyəti haqqında rəsmi məlumatlar xüsusilə qiymətlidir. Bu tipli məlumatların bir hissəsi ali dövlət orqanlarının sənədlərində, bir qismi də hüquq-mühafizə orqanlarının kargüzarlıq materiallarında əks olunmuşdur.[13]

XX əsrin ilk onilliklərində nəşr edilmiş dövri mətbuat səhifələrində bir qayda olaraq ayrıca kriminal hadisələrdən bəhs edən bölmələr var idi ki, oradakı yazıları izləməklə erməni qatı millətçiləri tərəfindən törədilmiş terror aktları haqqında bilgilər əldə etmək mümkündür. Hakimiyyət orqanlarının erməni terroru ilə bağlı rəsmi sənədlərinin əhəmiyyətli bir hissəsi AMEA Tarix İnstitutu tərəfindən ayrıca toplu halında nəşr edilmişdir.[14]

AMEA Tarix İnstitutu son dövrlərdə dünyanın müxtəlif ölkələrinin arxivlərində, kitabxanalarında, muzeylərində mühafizə edilən və Qafqaz regionunda, o cümlədən də Azərbaycanın ayrı-ayrı bölgələrində baş vermiş soyqırımları tarixini yüksək elmi səviyyədə araşdırmağa imkan verən sənədləri gətirmiş və toplular halında nəşr etmişdir.[15] Bu toplulardakı materiallar Qər-

---

[13] Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə. Üç cilddə. II c. / tərtibçi K.Şükürov. –VIII+616 s.; III c. / tərtibçi K.Şükürov. – Bakı: "Elm" nəşriyyatı, – 2010. – VIII+348 s.; Qaraoğlu, F. Ermənilər və həqiqətlər (rəsmi sənədlərlə) / F.Qaraoğlu. – Bakı: «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2007. – 400 s.; Qasımov, M.C. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). Üç hissədə. III hissə. Sənədlər, materiallar, xatirələr, şəkillər. – Bakı: Adiloğlu, 2004. – 532 s.; Perinçek, Mehmet. Rus Devlet Arşivlerinden 150 Belgede Ermeni Meselesi / M.Perinçek. – İstanbul: Doğan Kitab Evi, – 2016. – 336 s.

[14] Исторические факты о деяниях армян на азербайджанской земле. Сборник (Historical Facts of Armenia's Actions in Azerbaijan Land. Collection) / науч. ред. Я. М. Махмудов. – Баку: Тахсил. – 2009. – 304 с.

[15] Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu. 3 cilddə, II c., 2-ci kitab, İrəvan quberniyasında soyqırımı. 1918-1920-ci illər // tərtibçi İ.Niftəliyev, – Bakı: Çaşıoğlu, – 2011. – 456 s.; Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. / науч. ред. Я.Махмудов. – Баку: Типография Шарг-Гарб, – 2011. – 712 с.

bi Azərbaycanda, o cümlədən Sürməli (İqdır) bölgəsində XIX əsrin 20-ci illərindən başlayaraq etno-demoqrafik vəziyyətin necə dəyişməsini izləmək, erməni dəstələrinin dinc müsəlman-türk əhaliyə qarşı qətl və qarətlərini obyektiv araşdırmaq üçün olduqca əhəmiyyətlidir. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin fondlarında saxlanan sənəd və materialların dərc edildiyi topluda da erməni terroru, qatı millətçi qüvvələrin törətdiyi qətl və qarətlər haqqında rəsmi sənəd, raport və məruzələr əks olunmuşdur.[16]

Dissertasiya mövzusu üzrə mənbələr sırasında Rusiya imperiyasının ağalığı dövründə nəşr edilmiş statistik toplular da mühüm yer tutur. İrəvan xanlığının işğalından dərhal sonra aparılmış kameral sayım materialları[17] həmin dövrdə azərbaycanlı əhalinin bütün məhrumiyyətlərə baxmayaraq, öz ata-baba torpaqlarında yaşamlarını davam etdirdiyini və sayca çoxluq təşkil etdiyini sübut edir.

Qafqazda, o cümlədən İrəvan quberniyasında 1886-cı ildə yaşayan əhalinin sayı, milli tərkibi haqqında məlumatların əks olunduğu topludakı materiallar[18] işğaldan sonrakı 60 ildə Sürməli qəzasında etnik mənzərənin necə dəyişdiyini aydınlaşdırmağa imkan verir. 1897-ci ildə İrəvan quberniyasında əhalinin sayı, milli tərkibi, yeni köçənlər haqqında statistik məlumatların əks olunduğu toplu[19] Sürməli qəzasında 1886-cı ildən keçən 10

---

[16] Багиров, М.Б., В поисках истины … Лицо армянства. (Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики. Документы свидетельствуют …) / М.Багиров, Х.Вердиева. – Баку: изд. «MBM», – 2011. – 608 с.

[17] Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. / И.Шопен. – СПб., – 1852. – 1232с.

[18] Свод статистических данных о населении Закавказского края, извлечённых из посемейных списков. 1886 г., Тифлис: Типография Главного Управления главноначалствующего гражданской части на Кавказа. – 1893. – 487 с.

[19] Первая всеобщая перепись населения Российской империи 1897 г., т. LXXI. Эриванская губерния / – СПб.: изд-во ЦСК МИД – 1905. – 186 с.

il ərzində ermənilərin sayındakı kəskin artımın 1894-1896-cı illərdə Şərqi Anadoluda qiyamlardan sonra Rusiya hüdudlarına kütləvi köçünün nəticəsi olduğunu üzə çıxarır.

Daşnaksutyun partiyasının və digər qatı millətçi təşkilatların yaranması və terrorçuluq fəaliyyəti haqqında məlumatların əks olunduğu toplular[20] dissertasiya mövzusu üzrə önəmli mənbələrdir. Daşnak liderlərinin etirafları, dinc azərbaycanlı əhalini məhv etmək sahəsində "qəhrəmanlıqları", erməni terrorçuları üzərində məhkəmə prosesləri haqqında məlumatlar erməni yalanlarına göz yuman, erməni terrorçularını himayə edən Qərb ölkələri və Rusiya auditoriyası üçün xüsusilə önəmlidir.

Son 30 ildə Türkiyədə erməni qatı millətçi və terrorçu təşkilatlarının yaranması və fəaliyyəti, erməni dəstələrinin dinc müsəlman türk və kürd əhalini kütləvi məhv etmələri və onlara qarşı mübarizə haqqında Osmanlı arxivlərində saxlanan çoxlu sayda sənəd topluları[21] nəşr edilmişdir. Eləcə də Şərqi Anadoluda, o cümlədən İqdırda soyqırımı şahidlərinin xatirələrinin, toplu məzarlıqların aşkar edilməsi və araşdırılmasının nəticələri xüsusi nəşrlərdə[22] əks olunmuşdur.

---

[20] Дашнаки (Из материалов департамента полиции). – Баку: Изд-во «Коммунист», – 1990. – 40 с.; Сведения об организации и деятельности армянской революционной партии «Дашнаксутюн» // История Азербайджана по документам и публикациям / под ред. акад. З.М.Буниятова. – Баку: Элм, – 1990.–384с.; Лалаян, А. Контрреволюционный «Дашнаксутюн» и империалистическая война 1914-1918 гг. // – Москва, «Революционный Восток», № 2-3 (36-37), – 1936. – с.76-99

[21]Devlet Arşivleri, Ankara, – 1997. – 438 s.; Ermenilər tarafından yapılan katliam belgeleri (1914-1919) / T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı, Yayın Nu: 49, c.I, – Ankara: Başbakanlık Basımevi, – 2001. – 740 s.; Osmanlı arşiv belgelerinde Nahçıvan / – İstanbul: Baskı secil ofset, – 2011. – 568s.; Osmanlı belgelerinde İğdır / – İğdır: İğdır Universitesi Basım Matsis Matbaa, – 2017. –251 s.; Kafkas'yada "ermeni meselesi": 1895-1912 (Osmanlı Arşiv Belgeleri) / – İstanbul: TEAS Press Neşriyyat Evi, – 2018. – 754 s.

[22] Türközü, Halil Kemal. Osmanlı ve Sovyet belgeleriyle Ermeni mezalimi / K.Halil – Ankara: Türk kültürünü araşdırma Enstitusu, – 1982. – 115 s.+ 69 resim; Kırzıoğlu, Fahrettin M. Kars ili çerçivesinde ermeni mezalimi (1918-

Erməni silahlı dəstələrinin törətdikləri kütləvi qətl və qarətlər XX əsrin ilk onilliklərində dövri mətbuat səhifələrində geniş əks olunmuşdur. Azərbaycan ziyalıları erməni vəhşiliklərini ifşa edən məqalələri ilə o zamankı hakimiyyətin diqqətini bu ağrılı problemə yönəltməyə çalışırdılar. Eyni zamanda, Azərbaycan cəmiyyətini xəbərdar edir, özünümüdafiə tədbirləri görməyə, evləri dağıdılan, qaçqın düşən əhaliyə yardımlar təşkil etməyə çağırırdılar. "Kaspi", "İqbal", "İrşad", "Açıq söz", "Azərbaycan" qəzetlərində və digər mətbuat səhifələrində dərc edilmiş məqalələrdən və rəsmi məlumatlardan dissertasiya işində geniş istifadə edilmişdir. Tiflisdə, Moskvada və Peterburqda nəşr edilən qəzetlərdə isə erməni təbliğatının təsiri ilə ermənilərin özlərini qoruduqları iddia edilirdi. Bu qəzetlərdə dərc edilmiş məqalələrə tənqidi yanaşmaqla, erməni vəhşiliklərinin miqyası haqqında məlumat əldə etmək mümkündür.

Azərbaycan Respublikası Dövlət Mərkəzi Tarix Arxivinin və Azərbaycan Respublikası Dövlət Arxivinin fondlarında saxlanılan hakimiyyət nümayəndələrinin raport və hesabatları, rəsmi yazışmaları da qiymətli mənbələrdir. Xüsusən AXC Xarici işlər nazirliyi xətti ilə Ermənistan hökumətinə, Antantanın Qafqazdakı təmsilçilərinə ünvanlanan notalar 1918-1920-ci illərdə erməni rəsmilərinin dövlət səviyyəsində yerli azərbaycanlı əhaliyə qarşı soyqırımı gerçəkləşdirildiyini sübut edir.

Beləliklə, müraciət olunmuş mənbələr müxtəlif xarakterlidir və tədqiqat obyekti kimi götürülmüş mövzunun bütün aspektlərini özündə əks etdirir və bir-birini tamamlayır. Bu materialların bütöv bir tam halında tədqiqat prosesinə cəlb edilməsi ümumilikdə ermənilərin törətdikləri soyqırımı faktlarının daha ətraflı və dərindən araşdırılmasına kömək etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti olaraq XX əsrin ilk onilliklərində erməni silahlı dəstələrinin İrəvan quberniyasının Sürməli (İqdır) bölgəsində törətdikləri

---

1920) F.Kırzıoğlu. – Ankara, – 1999. – 136 s.; Türkdoğan, Berna. Türk-Ermeni İlişkileri (Tehcir-den Günümüze) / Doktora Tezi. –Ankara, T.C. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, –2006. – 339 s. və s.

kütləvi qətliamlar və onların ağır nəticələrinin araşdırılması müəyyən edilmişdir. 1905-1906-cı illərdə törədilmiş qırğınlar, Birinci dünya müharibəsi dövründə erməni hərbi birliklərinin qətl və qarətləri, Ermənistan Respublikası yaradıldıqdan sonra dövlət səviyyəsində etnik təmizləmə siyasəti tədqiqatın əsas predmetini təşkil edir. Dissertasiya işinin xronoloji çərçivəsi kütləvi qətl və qarətlərin başlandığı 1905-ci ildən, Sürməli qəzasının qəti şəkildə Türkiyəyə birləşdirilməsi nəticəsində bölgədə erməni qətl və qarətlərinə son qoyulduğu 1920-ci ilə kimi dövrü əhatə edir. Bununla bərabər, Sürməli mahalının Azərbaycan türklərinin qədim yurdu olması, bu bölgəyə ermənilərin XIX əsrin 20-ci illərindən kütləvi şəkildə köçürülməsi və elə o zamandan da yerli müsəlman-türk əhalinin sıxışdırılması faktlarına da yer verilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan başlıca məqsəd Sürməli (İqdır) bölgəsində yerli azərbaycanlı əhaliyə qarşı erməni dəstələrinin XX əsrin ilk onilliklərində həyata keçirdikləri soyqırımı faktlarının obyektiv şəkildə tədqiq edilməsidir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- İrəvan xanlığının Sürməli mahalının tarixən Azərbaycan türklərinin ata yurdu olduğunu sübut etmək;
- Sürməli bölgəsinə sünni kürdlərin və ermənilərin orta əsrlərin son dövründə Osmanlı sultanları tərəfindən hərbi-siyasi mülahizələrə görə köçürülməyə başlandığını göstərmək;
- Sürməli mahalına erməniləri kütləvi köçürməsinin yerli azərbaycanlıların yaşayışına ağır təsirini araşdırmaq;
- XIX – XX əsrin ilk onilliklərində Sürməli qəzasında sosial-iqtisadi vəziyyəti aydınlaşdırmaq;
- Erməni təşkilatlarının yaratdığı silahlı dəstələrin XX əsrin başlanğıcında İrəvan quberniyasında, xüsusən də Sürməli qəzasında törətdikləri kütləvi qətliamları araşdırmaq;
- Birinci dünya müharibəsi illərində yaradılmış erməni könüllü dəstələrinin cəbhəyanı bölgələrdə, o cümlədən Sürməli qəzasında gerçəkləşdirdiyi qətl və qarətləri üzə çıxarmaq;

- Ermənistan Respublikası dövründə dövlət səviyyəsində həyata keçirilən etnik təmizləmə siyasətini və onun faciəli nəticələrini tədqiq etmək.

**Tədqiqat metodları.** Dissertasiya mövzusunun tədqiqi prosesində faktlara və hadisələrə obyektiv və qərəzsiz yanaşılmış, analiz, sintez, ümumiləşdirmə metodlarından geniş istifadə edilmiş, tənqidi qiymətləndirmə, tarixi-müqayisəli və sistemli təhlil üsullarına üstünlük verilmişdir. Araşdırma zamanı hadisələrin səbəb-nəticə əlaqələrinin üzə çıxarılması, hasil olunan nəticələrin təhlili və ümumiləşdirilməsi, xronoloji və məntiqi ardıcıllığın gözlənilməsi kimi tarix elmində ümumən qəbul edilmiş və təsbit olunmuş ənənəvi tədqiqat metodlarına müraciət olunmuşdur. Eyni zamanda, irəli sürülən müddəalar faktik materiallara əsaslanmaqla, tarixi hadisə və proseslərin əsl mahiyyətini doğru-düzgün açıqlamağa cəhd edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**Təqdim edilən dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

- XIX əsrin 20-ci illərindən – XX əsrin ilk onilliklərinə qədərki dövrdə Sürməli (İqdır) bölgəsində baş verən etno-demoqrafik dəyişikliklər bu qədim türk yurduna ermənilərin hərbi-siyasi mülahizələrə görə köçürülməsi ilə bağlı idi;
- erməni ailələrinin kütləvi surətdə Sürməli (İqdır) bölgəsinə köçürülməsi və müstəmləkə rejimi yerli azərbaycanlı əhalinin yaşayışına ağır təsir göstərmiş, əhalinin bir qismi doğma yurdunu tərk etmək məcburiyyətində qalmışdı;
- 1905-1906-cı illərdə erməni kilsəsinin, Daşnaksutyun partiyasının və digər qatı millətçi təşkilatların silahlandırdığı dəstələr Sürməli (İqdır) bölgəsində dinc müsəlman-türk əhaliyə qarşı kütləvi qətl və qarətlər törətmişlər;
- Birinci dünya müharibəsi dövründə yaradılan erməni hərbi dəstələrinin cəbhə bölgəsində və cəbhəyə yaxın bölgələrdə törətdikləri quldurluq və qarətçilik kütləvi xarakter almışdı;
- Ermənistan Respublikası yarandıqdan sonra dövlət səviyyəsində etnik təmizləmə siyasəti həyata keçirilmiş və bu si-

yasət Sürməli (İqdır) bölgəsində dinc insanların soyqırımına gətirib çıxarmışdı;

- Azərbaycan Xalq Cümhuriyyəti İrəvan quberniyasında, o cümlədən Sürməli qəzasında yaşayan azərbaycanlı əhalinin qorunması, qaçqınlara yardım göstərilməsi istiqamətində çox böyük fəaliyyət göstərmişdi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi Azərbaycan tarixşünaslığında ilk dəfə Sürməli (İqdır) bölgəsində XX əsrin ilk onilliklərində erməni silahlı dəstələrinin dinc azərbaycanlı əhaliyə qarşı qətliamları tədqiqat obyekti kimi götürülməsi və dissertasiya işində sistemli şəkildə hərtərəfli araşdırılmasıdır. Təqdim edilən dissertasiya işində ilk dəfə:

- XIX əsrin 20-ci illərindən – XX əsrin ilk onilliklərinə qədərki dövrdə Sürməli (İqdır) bölgəsində etno-demoqrafik dəyişikliklər sistemli şəkildə araşdırılmış, bu qədim türk yurduna kürdlərin və ermənilərin sonradan hərbi-siyasi mülahizələrə görə köçürülməsi müəyyən edilmişdir;
- Erməni ailələrinin kütləvi sürətdə Sürməli (İqdır) bölgəsinə köçürülməsi prosesinin fəsadları araşdırılmış, yerli azərbaycanlı əhalinin yaşayışına ağır təsir göstərməsi konkret faktlarla şərh edilmişdir;
- 1905-1906-cı illərdə erməni kilsəsinin, Daşnaksutyun partiyasının silahlandırdığı dəstələrin Sürməli (İqdır) bölgəsində dinc müsəlman-türk əhaliyə qarşı qətl və qarətləri ilkin mənbələr əsasında işıqlandırılmışdır;
- Birinci dünya müharibəsi başlandıqdan sonra yaradılmış erməni hərbi dəstələrinin cəbhə bölgəsində və cəbhəyə yaxın bölgələrdə törətdikləri quldurluq və qarətçilik faktları üzə çıxarılmışdır;
- Ermənistan Respublikası yarandıqdan sonra dövlət səviyyəsində etnik təmizləmə siyasəti aparıldığı və bu siyasətin Sürməli (İqdır) bölgəsində dinc insanların soyqırımına gətirib çıxardığı statistik göstəricilərlə sübut edilmişdir.
- Azərbaycan Xalq Cümhuriyyətinin İrəvan quberniyasında, o cümlədən Sürməli qəzasında yaşayan azərbaycanlı əhalinin

qorunması, qaçqınlara yardım göstərilməsi istiqamətində çox böyük fəaliyyəti sistemli şəkildə araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri Azərbaycan tarixi üzrə ümumi xarakterli əsər və dərsliklərin yazılmasında, həmçinin Azərbaycanın siyasi tarixi ilə bağlı ali təhsil ocaqlarında ümumi və xüsusi mühazirələrin hazırlanmasında istifadə edilə bilər. Dissertasiyada istifadə edilmiş faktik materiallar və statistik göstəricilər Azərbaycan tarixini saxtalaşdıranlara qarşı mübarizə, soyqırımı həqiqətlərinin üzə çıxarılması və erməni yalanlarının ifşa edilməsi zamanı əhəmiyyət kəsb edə bilər.

**Aprobasiya və tətbiqi**. Dissertasiya işi AMEA Tarix İnstitutunun Yeni tarix və Azərbaycan xalqına qarşı soyqırımları tarixi şöbəsində AMEA Qafqazşünaslıq İnstitutu, Bakı Dövlət Universiteti və Sumqayıt Dövlət Universitetindən dəvət edilmiş mütəxəssislərin iştirakı ilə müzakirə edilmiş və açıq müdafiəyə tövsiyə olunmuşdur. Tədqiqatın məzmunu və əsas ideyaları çap edilmiş 10 elmi əsərdə öz əksini tapmışdır. Onlardan 4-ü elmi məqalə, 6-sı elmi məruzədir. Məqalələrdən biri Ukraynada Tavriya Universitetinin Elmi Xəbərlərində, elmi məruzələrdən biri Türkiyənin İqdır şəhərində keçirilən beynəlxalq elmi konfransın materiallarında çap edilmişdir

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Tarix İnstitutunun Yeni tarix və Azərbaycan xalqına qarşı soyqırımları tarixi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və ümumi həcmi.** Dissertasiya işi ümumilikdə giriş, 7 yarımfəsil, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işinin ümumi həcmi 177 səhifə, ümumi işarə sayı (ədəbiyyat siyahısı daxil edilmədən) 287108 işarədir. Giriş – 30279, I Fəsil – 64794, II Fəsil – 59158, III Fəsil – 120182, Nəticə – 10283 işarədən ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti, qarşıya qoyulan məqsəd və vəzifələr, problemin öyrənilməsi vəziyyəti şərh edilmiş, bu sahə üzrə aparılmış tədqiqatların xarakteristikası verilmiş, müraciət edilən əsas mənbələr diqqətlə təhlil olunmuşdur. Çoxlu sayda arxiv materiallarına, statistik toplulara, qəzet və jurnal materiallarına, internet resurslarına, digər ilkin mənbələrə müraciət edilmişdir. Giriş hissəsində həmçinin tədqiqatın nəzəri və metodoloji əsasları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliklər, tədqiqatın nəzəri və praktik əhəmiyyəti və aprobasiyası haqqında AAK-ın tələblərinə uyğun şəkildə məlumat verilmişdir.

Dissertasiya işinin birinci fəsli **"Sürməli (İqdır) bölgəsinin Rusiya tərəfindən işğalının türk-müsəlman əhalinin vəziyyətinə təsiri"** adlanır və üç yarımfəsildən ibarətdir. ***"Rusiya işğalı ərəfəsində regionda etno-demoqrafik vəziyyət"*** adlı birinci yarımfəsildə Sürməli (İqdır) bölgəsinin qədim zamanlardan türk tayfalarının ata-baba yurdu olması, erməni və kürd tayfalarının bu yerlərə sonradan köçürülməsi və ümumi əhali sayında həmişə cüzi azlıq təşkil etmələri haqqında bilgi verilmişdir. İqdır (Sürməli) bölgəsi qədim dövrlərdən başlayaraq davamlı şəkildə Azərbaycanın tərkibində olmuşdur.

Müasir dövrdə Türkiyə Respublikasının şimal-şərqində yerləşən İğdır ili – İqdır vilayəti daha öncə Sürməli mahalı adı ilə Azərbaycan Səfəvi dövlətinin Çuxursəəd bəylərbəyiliyinə, XVIII əsrin ikinci yarısı və XIX əsrin ilk otuzilliyində İrəvan xanlığına, Rusiya işğalı dövründə də İrəvan quberniyasına daxil idi. İqdır (Sürməli) bölgəsi 1920-ci il dekabrın 2-də Türkiyə ilə Ermənistan Respublikası arasında Gümridə bağlanan müqaviləyə görə Türkiyəyə keçmişdir.

1590-cı ildə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri" adlı mötəbər mənbədən aydın olur ki, Osmanlı qoşunlarının hücumu zamanı Aralıq nahiyəsinin – İqdır (Sürməli) bölgəsinin azərbaycanlı əhalisinin böyük bir qismi dini təqiblərdən ehtiyat

edərək öz ata-baba yurdunu tərk etmək məcburiyyətində qalmış və yurdları məzrəəyə (tərk edilmiş yaşayış məskəninə – K.Ə.) çevrilmişdi.[23]

Yerli əhalinin boş qalmış yurdlarına Osmanlı sultanının əmri ilə sünni məzhəbindən olan kürd tayfaları köçürülmüşdü: *"Diyarbəkirdən və sair yerlərdən sünni məzhəbli kürdlər, "Kurmaç" adlanan Dəclə kürdləri ... İrəvan və Naxçıvan bölgələrinə gətirilərək, buralardan köçmüş Qızılbaş-türkmənlərdən və Oyrat xalqından boşalan kənd və qəsəbələrdə yerləşdirildi."*[24]

Sünni kürd tayfaları növbəti dəfə XVIII əsrin 20-ci illərində Osmanlı qoşunları Çuxursəəd bəylərbəyiliyini – İrəvan əyalətini yenidən zəbt etdiyi zaman köçürülüb yerləşdirilmişdi. Lakin Səfəvi dövləti həmin yerləri azad etdikdən sonra yerli azərbaycanlı əhali öz ata-baba torpaqlarına qayıtmışdı. İrəvan xanlığının mövcud olduğu dövrdə, xüsusən də Rusiya tərəfindən işğalı ərəfəsində İrəvan şəhərində və bütün mahallarda, o cümlədən də Sürməli (İqdır) bölgəsində əhalinin mütləq əksəriyyəti Azərbaycan türkləri idi. Ermənilər isə ümumi əhalinin yalnız 18,76 faizini təşkil edirdilər.[25]

İkinci yarımfəsil ***"Sürməli (İqdır) bölgəsinə ermənilərin kütləvi köçürülməsi"*** adlanır və bu bölümdə İrəvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı prosesində yerli türk-müsəlman əhalinin məhrumiyyətləri, işğaldan sonrakı ilk illərdə Sürməli mahalına ermənilərin kütləvi köçürülüb yerləşdirilməsi təhlil edilmişdir. Rus tədqiqatçısı İ.Şopenin məlumatına görə, Rusiya işğalı dövründə İrəvan xanlığının köklü sakini olan 27 min müsəlman öldürülmüş və ya hərbi əməliyyatların baş verdiyi bölgələrdən köçməyə məcbur olmuşdu. Nəticədə keçmiş

---

[23] İrəvan əyalətinin müfəssəl dəftəri. / tərtibçi T.H.Nəcəfli. – Bakı: Çaşıoğlu, – 2009, – s.213-218

[24] Kırzıoğlu, F. M. Osmanlıların Kafkaz – ellerini fethi (1451-1590) / F. Kırzıoğlu. – Ankara: Türk Tarih Kurumu Basımevi, – 1998. – s.437-438

[25] Bournoutian, G.A. The khanate of Erevan under Qajar rule 1795-1828. Mazda Publishers in association with Bibliotheca Persica / G.Bournoutian. Costa Mesa. – California fyd New York, – 1992, – p. 35

xanlığın ərazisində cəmisi 49 875 müsəlman qalmışdı.[26]XIX əsrin 30-cu illərində Sürməli mahalında oturaq müsəlman əhalidən cəmi 709 ailə və ya 4832 nəfər[27] yaşamını davam etdirirdi. Həmin dövrdə Sürməli mahalına Qacarlar dövlətindən 299 ailə və ya 1459 nəfər, Osmanlı imperiyasından 261 ailə və ya 1342 nəfər erməni köçürülüb yerləşdirildi[28]. Sürməli mahalına yerləşdirilən erməni ailələri əsasən Bəyazid bölgəsindən köçürülənlər idi.[29] Nəticədə mahaldakı ermənilərin ümumi sayı 935 ailəyə və ya 5892 nəfərə[30] çatmışdı. Bu da Sürməli mahalı üzrə ümumi əhalinin – 13525 nəfərin 43,5 faizinə bərabər idi.

1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi zamanı Osmanlı imperiyasından Sürməli qəzasına 35 min alaçıq (yəni ailə – K.Ə.) və ya 100 mindən çox erməni köçürüldü.[31] Sonrakı illərdə ermənilərin yalnız bir hissəsi Sürməli qəzasında qaldı, çoxu digər bölgələrə köçüb yerləşdilər. 1886-cı ildə keçirilmiş siyahıyalma materiallarına görə, həmin vaxt Sürməli qəzasında 9748 ailə və ya 71066 nəfər yaşayırdı ki, onun da 34451 nəfəri tatar (azərbaycanlı – K.Ə.), 14629 nəfəri kürd, 22096 nəfəri erməni idi.[32] Yəni, XIX əsrin 80-ci illərində bu bölgədə yaşayan ermənilər ümumi əhalinin üçdə birindən azını təşkil edirdi.

1893-1894-cü illərdə Osmanlı dövlətinin şərq vilayətlərində erməni qiyamları yatırıldıqdan sonra Qafqaz diyarına erməni köçünün yeni böyük dalğası başladı. Qısa müddətdə bu diyara

---

26 Шопен, И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи / И.Шопен. – СПб., – 1852. – с.635-636

27 Шопен, И.И. Указ. раб., – с.647-648

28 Шопен, И.И. Указ. раб., – с.649-650

29 Rəhimoğlu, H. Silinməz adlar, sağalmaz yaralar / H.Rəhimoğlu. – Bakı: Azərnəşr, – 1997, – s.26

30 Шопен, И.И. Указ. раб., – с.647-648

31 Qafqazda "erməni məsələsi." III c., – s.132

32 Свод статистических данных о населении Закавказского края, извлечённых из посемейных списков. 1886 г., – Тифлис, – 1993. –с. IX, 9

280 minə qədər erməni köçdü.[33] Bu yeni köçün Sürməli qəzasına təsiri 1897-ci ildə Rusiyada əhalinin siyahıya alınmasına aid topluda əks olunmuşdur. Topludakı məlumatlara görə, həmin vaxt Sürməli qəzasında 93958 nəfər əhali yaşayırdı ki, onların da 41417 nəfəri tatar (azərbaycanlı – K.Ə.), 27075 nəfəri erməni, 19099 nəfəri kürd idi[34].

XX əsrin ilk onilliklərində ermənilərin əzəli Azərbaycan, müsəlman-türk əhalinin yaşadığı yerlərə, o cümlədən Sürməli qəzasına köçməsi davam edirdi. 1915-ci ildə Sürməli qəzasında 105741 nəfər əhali yaşayırdı ki, onlardan 66370 nəfər müsəlman, 32636 nəfər erməni, 5735 nəfər də digər əhali idi.[35] Bu, Qafqaz cəbhəsində rus ordusunda xidmət edən erməni hərbçilərinin və könüllü erməni dəstələrinin cəbhəyə yaxın bölgələrdə türk-müsəlman əhaliyə qarşı açıq-aşkar düşməncəsinə davranmasından irəli gələn mənzərə idi.

***"XIX-XX əsrin əvvəllərində Sürməli (İqdır) bölgəsinin sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti"*** adlı üçüncü yarımfəsildə "Erməni vilayəti" yaradıldıqdan sonra bölgədə sosial-iqtisadi vəziyyət, vilayət idarəsinə soxulmuş erməni məmurlarının özbaşınalığı və rüşvətxorluğu, qatı millətçi erməni təşkilatlarının bölgənin ictimai-siyasi vəziyyətinə təsiri araşdırılmışdır. XIX əsrin 30-50-ci illərində qadağanedici gömrük qaydaları İrəvan əyalətində, o cümlədən Sürməli bölgəsində iqtisadi vəziyyətə, xüsusən də ticarət əlaqələrinə mənfi təsir göstərdi. Əslən erməni olan rus ordusunun generalı, knyaz V.Bebutov «Erməni vilayəti»nin rəisi təyin edildiyi 1830-cu ildən[36] sonra əhalinin iqtisadi vəziyyəti daha da ağırlaşdı.

---

[33] Qafqazda "erməni məsələsi." III c., – s.132-133

[34] Первая всеобщая перепись населения Российской империи 1897 г. т. LXXI. Эриванская губерния – СПб., 1905, – с.18

[35] Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu. 3 cilddə, II c., 2-ci kitab, İrəvan quberniyasında soyqırımı – s.17-18

[36] Акты, собранные Кавказскою археографической комиссиею / Под редакцией А.П. Берже. т. VII. – Тифлис, – 1878, – с.497

XIX əsrdə və XX əsrin əvvəllərində erməni əhalisinin mədəni-maarif işlərində erməni-qriqorian kilsəsinin təsiri çox gücləndi. Kilsə rəhbərliyi və erməni qatı millətçi dairələrinin açdıqları məktəblər türklərə, müsəlmanlara nifrət təbliğ edən mərkəzlərə çevrildi. Nəticədə qatı millətçi, türk-müsəlman qonşularına qarşı qəzəb, kin bəsləyən, "erməni məsələsi" üçün qanlı cinayətlər, terror aktları törətməyə hazır olan qudurğan, inadcıl gənclər yetişdi. Bu dövrdə həmçinin Qacarlar İranı və Osmanlı dövləti üzərindən erməni terrorçularına silah-sursat göndərilməsi cəhdləri çoxaldı. Rusiya sərhəd xidməti, jandarm idarəsi İrəvan quberniyasının cənub sərhədi, xüsusən də Sürməli qəzası istiqamətində buna qarşı tədbirləri gücləndirdi. Bu da öz növbəsində erməni qatı millətçi qüvvələrinin Qafqazdakı Rusiya hakimiyyəti nümayəndələrinə qarşı terror aktları törətmələrinə gətirib çıxardı. Qısa müddət ərzində Qafqazda xidmət edən 47 nəfər rus mülki məmuru və hərbçisi,[37] o cümlədən, Sürməli qəzasının rəisi A.Boqoslovski və onun yerinə təyin edilmiş Dudnikov[38] erməni terrorunun qurbanı oldular. Sonuncu iki şəxsin öldürülməsinə səbəb onun Sürməli qəzası ərazisindən erməni qatı millətçilərinin qaçaqmalçılıq yolu ilə silah daşımalarının qarşısını almaq üçün qəti tədbirlər görmələri idi.

Lakin 1905-ci ilin əvvəlində milli ucqarlarda mütləqiyyət quruluşuna qarşı xalq inqilabı başladıqda, çar hakimiyyəti təmsilçiləri kütlələrin diqqətini yayındırmaq, inqilabi çıxış iştirakçılarının sıralarını parçalamaq üçün millətlərarası toqquşmalara imkan verdi. Türk-müsəlman əhalisinə qarşı nifrət təbliğ edən, onları özlərinin əbədi düşməni kimi qələmə verən erməni-qriqorian kilsəsinin və qatı millətçi təşkilatların xidmətlərindən yararlanmağı qərara aldı

Dissertasiya işinin **"XX əsrin əvvəllərində Sürməli (İqdır) bölgəsində etnik münasibətlər"** adlı ikinci fəsli iki yarım-

---

[37] Алиева, М.Ф. Армянский террор против Азербайджанского народа в XX в. / М. Алиева. – Баку: «Турхан» ИПО, – 2018, – с.27-28, 33

[38] Багиров, М.Б., Вердиева, Х. Ю. В поисках истины …, – с.605

fəsildən ibarətdir. *“****1905-1906-ci illərdə ermənilərin Azərbaycan türklərinə qarşı etnik zəmində cinayətləri”*** adlı birinci yarımfəsildə 1905-1906-ci illərdə ermənilərin Azərbaycan türklərinə qarşı etnik zəmində cinayətləri tədqiq edilmişdir. Daşnaksutyun partiyasının terrorçu dəstələr yaradıb müsəlman əhaliyə qarşı kütləvi qətl və qarətlərə başlaması İqdır-Sürməli bölgəsində azərbaycanlıların yaşayış məntəqələrinə ciddi ziyan vurdu. 1905-1906-cı illərdə erməni silahlı dəstələri Sürməli qəzasında və başqa bölgələrdə azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqəsini viran qoydular, on minlərlə dinc sakin öz doğma yurdlarından qaçqın düşdü. Ermənilər 200 mindən artıq azərbaycanlını, o cümlədən uşaq, qadın və qocanı qətlə yetirməklə həmin ərazilərdə etnik təmizləmə apardılar.

Qafqaz canişinliyi Xüsusi Şöbəsinin 1909-cu ildə tərtib etdiyi arayışda erməni qatı millətçilərinin 1905-1906-cı illərdə terror aktları ilə etnik təmizləmə siyasəti həyata keçirdikləri qeyd edilmişdi: onlar törətdikləri terror aktları ilə *“qismən başqa məqsədlərinə də çatdılar: Zaqafqaziya (Cənubi Qafqaz – K.Ə.) ərazisində tatarların (azərbaycanlıların – K.Ə.) məskunlaşdıqları torpaqları onlardan təmizlədilər ki, gələcəkdə həmin yerlərə Türkiyədən, qismən də İrandan köçürüləcək erməniləri yerləşdirsinlər.”*[39]

Belə bir ağır zamanda hazırlıqsız yaxalanmalarına baxmayaraq, Sürməli qəzasının qeyrətli ziyalıları, nüfuzlu şəxsləri dinc əhalini qorumaq üçün ayağa qalxdılar. Yaşayış məntəqələrinin müdafiəsi üçün silahlı dəstələr yaradıldı. Türk-müsəlman əhalini qorumaq üçün Naxçıvandan da silahlı dəstələr köməyə gəldi. Nəticədə erməni quldurlarının məkrli planlarının qarşısı alındı.

***“1914-1916-cı illərdə erməni silahlı dəstələrinin türk-müsəlman əhaliyə qarşı zorakılıqları”*** adlı ikinci yarımfəsildə Birinci dünya müharibəsi başlandıqdan sonra çarizmin erməni millətçi qüvvələrindən yararlanması, Qafqaz cəbhəsindəki rus

---

[39] Сведения об организации и деятельности армянской революционной партии «Дашнаксутюн» / История Азербайджана по документам и публикациям, – с.108

ordusu tərkibində döyüşmək üçün yaradılmış erməni könüllü birliklərinin dinc müsəlman türk və kürd əhaliyə qarşı qətliamları tədqiq edilmişdir. Hərbi əməliyyatlar aparılan ərazilərin yaxınlığında olan Qars, Ərdahan və Batum vilayətlərinin, Sürməli (İqdır) və İrəvan bölgələrinin müsəlman əhalisi müharibənin ilk dövründən olduqca çətin vəziyyətə düşdü. Osmanlı dövlətinə qarşı döyüşlərdə iştirak etməli olan erməni hərbi qüvvələri bu bölgələrdə yaşayan türk-müsəlman əhalisinə qarşı qətl və qarətlərə başladılar. O dövrün qaynaqlarında İqdır və İrəvan bölgələrində özbaşınalığın, yerli müsəlman-türk əhalinin əmlakının qarət edilməsi faktlarının çoxaldığı qeyd edilmişdir. Sürməli (İqdır), Qars, Ərdahan və digər cəbhəyanı bölgələrdə bu erməni dəstələri 30 min müsəlman-türk əhalini qətl etmişdi.[40] Onların bir qismi dinc əhali, bir qismi də əsir alınmış Osmanlı hərbçiləri idi. Rus hərbçilərinin xatirələrinə görə, erməni əsgərləri aclıqdan və xəstəlikdən zəif düşmüş türk əsirlərini tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər.[41] Rusiyanın Qafqazdakı ordusunun baş ştab rəisi general L.Bolxovitinov da 1915-ci ildə Qafqaz canişininə ünvanladığı raportunda erməni silahlı dəstələrinin dinc əhaliyə: qadın, uşaq və qocalara qarşı zorakılıqları barəsində geniş məlumat vermişdi.[42]

Birinci dünya müharibəsi başlandıqdan sonra Cənub-qərbi Qafqazda, o cümlədən İqdır bölgəsində yerli azərbaycanlı və digər müsəlman əhaliyə qarşı orada yaşayan qonşu ermənilər tərəfindən də zorakılıqlar artdı. Erməni əhali Rusiyanın Osmanlı dövlətinə qarşı müharibə aparmasını fürsət sayaraq, qonşuları olan müsəlman-türk əhalini qarət etmək, qətllər törətməklə qorxudub qovmağa, həmin yerlərdə mövqelərini möhkəmlətməyə çalışırdılar. Dinc müsəlman-türk əhaliyə qarşı bu zorakılıq hərə-

---

[40] Qəhrəmanov, N. I Dünya müharibəsində Qafqaz cəbhəsində erməni amili. / –N.Qəhrəmanov. – Bakı: "E.L." NPŞ, – 2008, – s.77

[41] Türkdoğan, Berna. Türk-Ermeni İlişkileri (Tehcirden Günümüze). – s.68

[42] Рапорт генерал-майора Болховитинова о деятельности армянских вооруженных отрядов в Турции и Закавказье в Первую мировую войну / Отв. за вып. А.Агаларов. – Баку: Азернешр, – 2012. – 152 с.

kətlərindən narahat olan Qars vilayətinin general-qubernatoru Zuyev 1914-cü il dekabrın 22-də xüsusi bəyannamə imzalayaraq, müqəssirləri edam cəzası ilə qorxutdu. Lakin bir ay sonra 1915-ci il yanvarın 19-da tərcüməsi "İqbal" qəzetinin 842-ci sayında dərc edilmiş yeni bəyannaməsində təəssüflə bildirdi ki, *"xristian (erməni – K.Ə.) əhalinin düşməncəsinə həmlələri o zamandan bəri azalmamış, əksinə daha da şiddətlənmişdir. ... xristian (erməni – K.Ə.) əhalisi qətiyyən günahı olmayan və qüsursuz müsəlmanları öldürməklə qalmır, ... intiqam almaq qəsdi ilə silahlanıb müsəlman kəndlərini talan və qarət etməyə girişir, hər cür zülm və zorakılıqlar edirlər."*[43]

Ümumiyyətlə, Birinci dünya müharibəsi dövründə Sürməli (İqdır) bölgəsinin azərbaycanlı əhalisi həm Qafqaz cəbhəsində döyüşə gedən və sonra da dincəlmək və sıralarını artırmaq üçün geri dönən erməni dəstələrinin özbaşınalıqlarına məruz qaldı, həm də hərbi əməliyyatların baş verdiyi Şərqi Anadoludan qaçqın düşən qəzəbli erməni kütləsinin zorakılıqlarından əziyyət çəkdi. Bu yarımfəsildə cəbhəyə yaxın bölgələrdə rus və erməni hərbçiləri tərəfindən yaşayış məntəqələrinin topa tutulması, yandırılması, hər cür yaşayış vasitələrindən məhrum edilməsi nəticəsində aclıqdan və soyuqdan məhv olmağa tərk edilmiş dinc əhaliyə Bakıdan və digər şəhərlərimizdən xeyriyyə cəmiyyətləri vasitəsilə göstərilən yardımlar da tədqiq edilmişdir.

Üçüncü fəsil **"1917-1920-ci illərdə Sürməli (İqdır) bölgəsində etnik zəmində qırğınlar"** adlanır və üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil ***"1917-1918-ci illərdə ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri kütləvi qətl və qarətlər"*** adlanır və bu bölümdə 1917-ci il Fevral inqilabı və Oktyabr çevrilişindən sonra Qafqazda anarxiyanın güclənməsi, Qafqaz cəbhəsinin dağılması nəticəsində erməni silahlı dəstələrinin Cənub-qərbi Qafqazda, xüsusən də İrəvan quberniyasında, Sürməli bölgəsində vəhşilikləri, dinc müsəlman-türk əhaliyə

[43] Qars vilayətinin general-qubernatoru Zuyevin müraciəti // «İqbal» qəzeti, 19.I.1915, №842

qarşı qəddarlıqları araşdırılmışdır. Rus ordu hissələrinin və erməni hərbi qüvvələrinin 1917-ci ilin sonu – 1918-ci ilin ilk aylarında daha öncə işğal etdikləri Şərqi Anadoludan geri çəkilməsi ilə birlikdə o yerlərdə dinc müsəlman-türk əhalinin qətl və qarətlərində fəal iştirak etmiş erməni əhalisi də qisasdan qorxaraq kütləvi surətdə Cənubi Qafqaza, ilk növbədə də İrəvan quberniyasına axın etdi. Ermənistan Respublikasının liderlərindən biri olmuş O.Kaçaznuni sonralar etiraf etmişdi ki, *"onminlərlə, yüzminlərlə erməni qaçqını rus ermənilərinin qəzalarına (İrəvan və Gəncə quberniyalarının erməni əhalisi yaşayan qəzalarına – K.Ə.) doluşdular."*[44] Erməni xadimləri bu qəzəbli və ümidini hər yerdən üzmüş insanları qəsdən bu bölgələrə yönəldərək, onların vasitəsi ilə yerli azərbaycanlı əhalini öz ata-baba torpaqlarından zorla çıxarmağa başladılar.

Erməni qatı millətçi qüvvələri xüsusi canfəşanlıqla İrəvan və ətraf rayonlarında, ilk növbədə də Sürməli qəzasında etnik təmizləmə aparmaq və həmin yerləri ermənilərin kompakt yaşadığı regiona çevirmək[45] siyasəti yeridirdilər. Bunun üçün bütün alçaq metodlardan istifadə edilirdi: dinc müsəlman-türk əhali, həm də əksəriyyəti qadın, uşaq və qocalar olmaqla, vəhşi metodlarla qətlə yetirilir (diri-diri quyulara atıb üzərinə daş tökürdülər, süngü ilə dəlik-deşik edirdilər və s.), əmlakları qarət edilir, yaşayış məntəqələri yandırılır və ya Osmanlı dövlətindən qaçqın düşmüş ermənilər tərəfindən zəbt edilirdi.

Nəticədə, 1917-ci ilin sonu 1918-ci ilin ilk aylarında erməni silahlı dəstələri və Türkiyədən qaçqın düşmüş ermənilər tərəfindən Sürməli qəzasında 76 müsəlman kəndi dağıdılmışdı. Bu kəndlərdə 5493 təsərrüfat qarət edilmiş, 41347 nəfər, o cümlədən 19458 qadın və qız öldürülmüş və ya öz evlərini tərk

---

[44] Качазнуни, О. Дашнакцутюн больше нечего делать / О.Качазнуни. – Баку: Элм, –1990. – с.13

[45] Махмудов, Я.М. Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918-1920 гг. / Я.Махмудов. – Баку: Турхан ИПО, – 2015, – с.60

etmək məcburiyyətində qalmışdı.[46] Yalnız 1918-ci ilin yazında Osmanlı ordu birlikləri erməni hərbi dəstələrini məğlub edib qovduqdan sonra bölgədə əmin-amanlıq yarandı.

***"Ermənistan Respublikasının dövlət səviyyəsində etnik təmizləmə siyasəti"*** adlanan ikinci yarımfəsildə İrəvan quberniyası ərazisində Ermənistan Respublikası yaradıldıqdan sonra yerli azərbaycanlı əhaliyə qarşı dövlət tərəfindən qəddar cəza tədbirləri, erməni hərbi birliklərinin törətdiyi soyqırımı aktları müxtəlif qaynaqlar əsasında tədqiq edilmişdir.

Mudros barışığı şərtlərinə görə, Osmanlı hərbi hissələri 1914-cü il Rusiya-Osmanlı sərhədlərinə çəkilməli oldu. Bundan yararlanan erməni qüvvələri Qafqazdakı ingilis nümayəndələrinin yardımı ilə Sürməli (İqdır), Qars bölgələrini işğal etdilər. Ermənistan rəhbərliyi bu bölgələrdə azərbaycanlı və digər müsəlman əhaliyə qarşı etnik təmizləmə, soyqırımı siyasəti yeritməyə başladı.[47]

1919-cu ilin avqust ayında erməni hərbi hissələri Vedi istiqamətində Araz çayı boyunca müdafiə xətti yaratdılar. Ardınca Ermənistan Hərbi nazirinin müavini Dronun başçılıq etdiyi hərbi dəstələr Eçmiədzin qəzasında və İqdırda müsəlman kəndlərini dağıtmağa başladılar. 60-a qədər kənd yandırıldı, bütün kişi əhalisi məhv edildi. Dro dinc əhaliyə qarşı bu amansız cəza tədbirlərinə «strateji zərurət»[48] bəhanəsi ilə bəraət qazandırmağa çalışmışdı. 1919-cu ilin son iki ayında Sürməli qəzasında daha 34 kənd erməni hücumlarına məruz qaldı. Yaşayış məntəqələri dağıdıldı, əhalinin bütün əmlakı qarət edildi.[49] Hadisələrin bu cür inkişafı göstərirdi ki, "Böyük Ermənistan" yaratmaq xülyasında olan erməni siyasətçiləri iddia etdikləri torpaqlarda, o

---

[46] İrəvan quberniyasında 1918-ci ilin mart ayına kimi dağıdılmış və tərk edilmiş müsəlman kəndlərinin siyahısı // ARDA, f.894, siy.10, iş 80, v.50-52

[47] Osmanlı arşiv belgelerinde Nahçıvan, – s.397

[48] Cənub-qərbi Azərbaycan general-qubernatorluğunda vəziyyət haqqında // ARDA, f.894, siy. 10, iş 30, – vər. 43

[49] İrəvan quberniyasında 1919-cu ilin son iki ayında dağıdılmış müsəlman kəndlərinin siyahısı // ARDA, f.894, siy. 10, iş. 80, – v.31-33

cümlədən İqdırda etnik təmizləmə siyasətini davam etdirmək, həmin ərazidə qaçqın ermənilәri yerləşdirmək niyyətindədirlər. İqdır bölgəsindən olan müsəlman qaçqınlar dəfələrlə öz evlərinə qayıtmağa çalışsalar da, hər dəfə qətl və qarətlərə məruz qalırdılar. Onların evlərini və torpaqlarını Osmanlı dövlətinin şərq vilayətlərindən köçmüş ermənilər zəbt edirdilər.

1920-ci il fevralın 3-də 15-ci korpus komandanı Kazım Qarabəkir paşanın Hərbi nazirliyə göndərdiyi məlumatda bildirilirdi ki, ermənilər öz heyvanları ilə birlikdə İqdır ətrafında boş qalmış müsəlman kəndlərinə girib yerləşirlər.[50] Yalnız 1920-ci ilin payızında türk ordusunun erməni qoşunlarını məğlubiyyətə uğradıb Qars, Ərdahan və digər bölgələrlə yanaşı, Sürməli (İqdır) bölgəsini azad etməsi və bu yerlərin Türkiyəyə birləşdirilməsi həmin mənfur planın gerçəkləşdirilməsinin qarşısını aldı, burada yaşayan insanları məhv olmaqdan xilas etdi.

***"AXC-nin qaçqınlara yardımları"*** adlanan üçüncü yarımfəsildə Azərbaycan hökumətinin İrəvan quberniyasında, xüsusən də Sürməli qəzasında yerli müsəlman-türk əhalinin və digər bölgələrdən didərgin düşmüş qaçqınların təhlükəsizliyini qorumaq, onlara yardım göstərilməsini təşkil etmək üçün atdığı önəmli addımlardan bəhs edilmişdir. Bunlardan çox mühümü bu bölgədə yaşayan azərbaycanlı əhalinin hüquqlarını müdafiə etmək, maddi yardımlar göstərilməsini nizama salmaq üçün 1919-cu il yanvar ayının sonunda İrəvanda diplomatik nümayəndəlik təsis edilməsi və 1919-cu il fevralın 28-də Cənub-qərbi Azərbaycan general-qubernatorluğu yaradılması oldu.

Azərbaycan hökuməti İrəvan quberniyasında olan müsəlman qaçqınların ilkin zəruri ehtiyacları üçün 1919-cu ilin fevral ayında 1 mln., iyul ayında 3 mln., oktyabr ayında 2 mln., 1920-ci ilin yanvar ayında daha 21 mln. manat vəsait ayırdı, onlara ərzaq, paltar, dərman göndərilməsini təşkil etdi. Bakıda, Şamaxıda və digər bölgələrdə olan qaçqın və məcburi köçkünlərin məsələləri ilə məşğul olmaq üçün Mərkəzi Komissiya yaratdı.

---

[50] Osmanlı belgelerinde İğdır, – s.147

Hökumət 20 oktyabr 1919-cu il tarixli iclasında isə qaçqınların daşınması, yaşayış məntəqələrində yerləşdirilməsi, əkinə yararlı torpaqla və digər zəruri vasitələrlə təmin edilməsi üçün 68715531 manat məbləğində vəsait ayırdı.[51]

Bu bölümdə Azərbaycan hökumətinin erməni, rus, yəhudi, polyak və digər xalqlardan olan qaçqınlara müxtəlif yardımlarından da bəhs edilmişdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqata yekun vurulmuş, əsas nəticələr təqdim edilmişdir.

---

[51] Azərbaycan hökumətinin Qaçqınlar məsələsi üzrə yaradılmış Mərkəzi Komissiyasının məruzəsi əsasında 20 oktyabr 1919-cu il tarixli qərarı // f.894, siy.1, iş 27, v.12

**Dissertasiyanın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. XX əsrin başlanğıcında İğdır-Sürməli bölgələrində türk-müsəlman əhaliyə qarşı erməni qüvvələrinin kütləvi qətliamları // "Azərbaycanda və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1918-ci illər)" mövzusunda II beynəlxalq elmi konfransın materialları. – Bakı, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Əsərləri. Xüsusi buraxılışı, – 2015. №52, 53, 54, 55, – s.588-591
2. 1914-1920-ci illərdə İqdır-Sürməli bölgələrində türk-müsəlman əhaliyə qarşı soyqırımları haqqında // "Uydurma erməni soyqırımı: yalanlar, iftiralar; türk-müsəlman soyqırımı: faktlar, həqiqətlər" mövzusunda II beynəlxalq elmi konfransın materialları – Bakı, Azərbaycan Universiteti, – 2015. – s.335-340
3. İğdır (Sürməli) bölgəsində erməni silahlı dəstələrinin müsəlman əhaliyə qarşı soyqırımları (1918-1920-ci illər) // – Baкı: «Tarix və onun problemləri», – 2018. №3, – s.327-333
4. İğdır (Sürmeli) bölgesi: Rusya işğalının etnodemografiksel duruma etkisi // I. International Iğdir congress on multidisciplinary studies.– November 6-8, 2018. Congress book of full texts. – Iğdir, Iksad International Publishing House. – 2018, Vol III. – s. 2192-2196
5. Sürməli bölgəsində türk-müsəlman əhalinin soyqırımı Rusiya işğalı ilə başlanmışdır // "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusuna həsr olunmuş V beynəlxalq elmi konfransın materialları. – Bakı, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Əsərləri. Xüsusi buraxılış,- 2018. № 70, 71, 72, – s.173-176
6. İrəvan quberniyasının türk-müsəlman qaçqınlarına AXC-nin yardımları // Gənc tədqiqatçıların III respublika elmi-praktik konfransının materialları. – Bakı, Azərbaycan Universiteti, – 2020. – s.84-86

7. Sürməli (İqdır) bölgəsində türk-müsəlman qadınlara qarşı erməni zorakılıqları (XX əsrin ilk onillikləri) // Proceedings International Conference on Gender Problems and Modern Azerbaijan. – November 27, 2020. – Bakı, Azərbaycan Universiteti, – 2020. – s.27-31
8. Этно-демографическая ситуация Сурмалинского (Игдырского) региона в XIX-начале XX вв. // – Украина, Вчені Записки Таврійського Національного Університету імені В.І. Вернадського. Серія: Історичні науки, – 2021. Том 32 (71), № 3, – с.188-193
9. AXC-nin Sürməli qəzasından və İrəvan quberniyasının digər bölgələrindən olan qaçqınlara yardımları // – Bakı: "Bakı Universitetinin xəbərləri". Humanitar elmlər seriyası, – 2021. №3, – s.137-148
10. AXC-nin Sürməli qəzasında və İrəvan quberniyasının digər bölgələrində yerli hakimiyyət orqanları yaratmaq tədbirləri // – Bakı: «Tarix və onun problemləri», –2022. №2, – s. 147-152

Dissertasiyanın müdafiəsi 26 may 2023-cü il tarixində saat 13-00 Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ-1143. Bakı şəhəri, H.Cavid prospekti, 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 20 aprel 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.04.2023

Kağızın formatı: A5

Həcm: 47805

Tiraj: 100